**Cəmilə Elçin qızı QULİYEVA**
Azərbaycan Kooperasiya Universitetinin dissertantı,

# AZƏRBAYCANDA NƏQLİYYAT-LOGİSTİKA SİSTEMİNİN İNKİŞAF ETDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Xülasə**

*Tədqiqatın məqsədi* – Azərbaycanda nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsidir. Nəqliyyat-logistika sisteminin inkişaf problemləri açıqlanmış və sistemləşdirilmişdir. Nəqliyyat infrastrukturunun müasir dövrdə strateji əhəmiyyəti təhlil olunmuş və onun genişləndirilməsinin vacibliyi əsaslandırılmışdır. Qlobal çağırışlar və Azərbaycanda postkonflikt ərazilərdə nəqliyyat infrastrukturunun formalaşdırılması kontekstində nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi istiqamətləri üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.

*Tədqiqatın metodu* – baxımından bir sıra metodlardan - elmi abstraksiya, təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi problemlərinə dair müxtəlif tədqiqatçıların elmi əsərlərinə istinadlar olmuşdur.

*Tədqiqatın nəticələri* – qlobal çağırışlar şəraitində məqalədə əksini tapmış elmi-praktiki nəticələrdən nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi üzrə tədbirlərin və mexanizmlərin hazırlanmasında səmərəli ola bilməsi ilə izah edilir.

**Açar sözlər**: Azərbaycan, nəqliyyat sistemi, logistika sistemi, nəqliyyat-logistika sistemi, nəqliyyat-logistika problemləri, nəqliyyat-logistikanın səmərəlilik problemləri, nəqliyyat-logistika sisteminin inkişaf istiqamətləri.

**UOT:** 338.47:656.02
**JEL:** L90; O14; R40
**DOI:** https://doi.org/ 10.54414/ ALZV5548

## Giriş

Qeyd edək ki, müasir dövrümüzdə hələ də nəqliyyat-logistika fəaliyyətinin mahiyyətinin açıqlanması ilə bağlı vahid mövqe hazırlanmamışdır, onun effektivliyini təmin etmək üçün konseptual və metodoloji əsaslar formalaşmamışdır. Nəqliyyat-loqistika fəaliyyətinin dərəcəsi ilə bağlı genişmiqyaslı tədqiqatlar hələ də aparılır, onun səmərəliliyinə müxtəlif xarici və daxili amillərin təsiri tam öyrənilməyə səylər göstərilir [1, s. 7]. Bu və ya digər məsələlərin araşdırılması ilə nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətlərini müəyyənləşdirmək olar. Nəqliyyat-logistika sistemlərinin inkişafı qlobal iqtisadiyyatın ən mühüm komponentlərindən biridir. İqtisadiyyatın rəqəmsal transformasiyası hesabına onun bütün sahələrinin qarşılıqlı əlaqəsi sürətlənir ki, bu da nəqliyyat sektorunu daim təkmilləşdirməyə sövq edir. Bu onunla bağlıdır ki, beynəlxalq və daxili bazarların inkişafı həmişə malların və resursların sərbəst hərəkəti ilə müşayiət olunub. Ən səmərəli nəqliyyat-logistika sistemlərini qurmuş ölkələr beynəlxalq bazarda rəqabət apara biləcəklər. Yuxarıda göstərilənlər bu tədqiqatın aktuallığını müəyyənləşdirir və onun məqsədini formalaşdırmağa imkan verir.

Dünyanın bütün qitələrindəki dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə yönəlmiş xarici iqtisadi siyasət həyata keçirən, böyük resurs potensialına malik ölkələr dünya ticarətinin ən böyük iştirakçılarından biridir. Halhazırda nəqliyyat-logistika sisteminin inkişafı və təkmilləşdirilməsində əsas tendensiya nəqliyyat-logistika fəaliyyətinin idarə edilməsinin, yəni malların sürətli və keyfiyyətli çatdırılması üçün bütün xidmətlərin yayılmasına çevrilmişdir. Qlobal bazarlarda fəaliyyət üçün müəyyənedici strategiya çatdırılmanın yüksək sürətidir ki, bu da inkişaf etmiş cəmiyyətlərdə əsas fəaliyyət nöqtəsi olan nəqliyyat-logistika fəaliyyətinin artan rolundan xəbər verir [2, s.225]. Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyini artırmaq variantları xərcləri azaltmaq və müştəri məmnuniyyətini ar-

tırmaqla tələb və təklifi birləşdirməyə yönəldilmişdir. Bu, nəqliyyat-logistika sistemindəki qeyri-müəyyənliyi mümkün qədər azaltmaq, həmin sistemin bütün bölmələri üçün tələbin proqnozlaşdırılmasını təmin etmək tələblərini diktə edir. Bununla belə, bəzən məhsulun xüsusiyyətlərinə görə qeyri-müəyyənliyin qarşısını almaq çətindir. Nəqliyyat-logistika fəaliyyəti sahəsində səmərəlilik yerdən optimal istifadə, ehtiyatların azaldılması, kapital dövriyyəsinin sürətləndirilməsi, tədarükün etibarlılığı, işin səmərəliliyi və çevikliyi ilə ifadə olunan logistik fəaliyyətin tələb olunan keyfiyyət səviyyəsinə nail olunmasının göstəricisidir [3, s. 109].

**Qlobal kontekstdə nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi problemlərinin araşdırılması**

Məlumdur ki, xərcləri azaltmaq və nəqliyyat-logistika proseslərini təkmilləşdirmək məqsədilə logistika şirkətləri üçün vacib vəzifələrdən biri nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsidir. Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi işdəki nöqsanları aradan qaldırmaq, səmərəliliyi artırmaq, yüksək keyfiyyətli proqramları planlaşdırmaq və hazırlamaq, yeni ehtiyatlar tapmaq və düzgün qərar vermək üçün logistika fəaliyyətinin dərin təhlilini aparmaq imkanı verir. Nəqliyyat-logistika fəaliyyətinin effektivliyinin qiymətləndirilməsi vəzifəsi hər bir logistika şirkətinin özünün diqqətlə düşünülmüş inkişaf taktikasını müəyyən etmək üçün əsas təşkil edir. Uğurlu fəaliyyət göstərən logistika strategiyasını formalaşdırmaq üçün nəqliyyat-logistika fəaliyyətinin effektivliyinin qiymətləndirilməsi sistemi bir qrup mürəkkəb şərtlərə əsaslanmalıdır: bütün nəqliyyat-logistik fəaliyyət göstəricilərinin hərtərəfli uçotu; yalnız etibarlı ictimai məlumatlardan və ümumi qəbul edilmiş hesablama metodlarından istifadə edilməsi; səmərəliliyin təhlilinin nəticələrinin tətbiqi əsasında nəqliyyat-logistika sisteminin tənzimlənməsi və inkişafı; fəaliyyətin qiymətləndirilməsinin nəticələrinin sadəliyi və aydınlığı; alınan qiymətləndirmə nəticələrinin birmənalılığı.

Fikrimizcə, bu fəaliyyət növünün effektivliyinin qiymətləndirilməsi prosesi dörd əsas vəzifənin həllinə yönəldilməlidir: 1) logistik əməliyyatların monitorinqi; 2) nəqliyyat-logistika xidmətlərinin yerinə yetirilməsi prosesinə nəzarət; 3) müəyyənləşdirilmiş tendensiyalar əsasında operativ idarəetmə; 4) logistika prosesinin təkmilləşdirilməsi üçün gələcək taktiki və strateji tədbirlərin hazırlanması. Nəqliyyat-logistika fəaliyyəti üzrə effektivliyi qiymətləndirmək üçün bir sistem qurarkən, ilk növbədə, onun gələcək istifadəçilərinin ehtiyaclarına diqqət yetirilməlidir. Buna uyğun olaraq, nəqliyyat-logistika fəaliyyəti ilə bağlı səmərəliliyin qiymətləndirilməsi sisteminin əsasını təşkil etməli olan prinsipləri müəyyənləşdirirə bilərik: 1) etibarlılıq - giriş məlumatları ictimaiyyətə açıq olmalı, göstəricilərdən istifadə edilməlidir, onların hesablanması və mənası başa düşülən və ümumi qəbul edilən olmalıdır; 2) hərtərəflilik – nəqliyyat-logistika fəaliyyətinin müxtəlif aspektləri tam nəzərə alınmalıdır; 3) tətbiqi xarakter - qiymətləndirmə sistemi müəssisələrin təcrübəsində istifadəyə uyğunlaşdırılmalıdır. Alınan nəticələr təkliflərin formalaşdırılması üçün əsas olmalı, mövcud vəziyyətin yaxşılaşdırılması yollarını göstərməlidir; 4) görünmə qabiliyyəti - nəticələrin tam qavranılması üçün qrafik vasitələrdən mümkün qədər geniş istifadə edilməlidir; 5) unikallıq - alınan nəticələr ikiqat şərhlərə yol verməməlidir; 6) universallıq - qiymətləndirmə sistemi müxtəlif müəssisələrin fəaliyyət şəraitinə uyğunlaşdırılmalı, lakin onun spesifik keyfiyyətlərini tam nəzərə almalıdır.

Nəqliyyat-logistika sisteminin fəaliyyətinin səmərəliliyini artırmağın müasir və populyar üsullarından biri həmin sistemin missiyasını və uzunmüddətli strategiyasını ümumi məqsədə çevirən balanslaşdırılmış göstərici kartının istifadəsidir. Balanslaşdırılmış belə göstəricilərə aşağıdakılar daxildir: anbar dövriyyəsi ilə əlaqədar xərclərin azaldılması; nəqliyyat və logistika xidmətlərinin göstərilməsində resurslardan istifadə xərclərinin artım tempi ilə müqayisədə nəticələrin daha yüksək artım templəri; əlavə xidmətlər göstərməklə anbarların ötürmə göstəricilərinin və məhsulun maya dəyərinin artımının müqayisəsi; nəqliyyat kompleksinin əlavə dəyərinin ölkə əhalisinin artım tempini üstələməsi və s. Beləliklə, nəqliyyat-logistika sisteminin səmərəliliyinin qiymətləndirilməsi üzrə göstəricilər toplusu onun artımına və dayanıqlı inkişafına nail olmaqda maliyyə, maddi, əmək, informasiya axınlarını, yaşıl iqtisadiyyat texnologiyalarından fəal istifadəni və ölkənin iqtisadi təhlükəsizliyini əhatə edir [4, s.50].

Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün vahid, birmənalı şəkildə tanınan, konkret metodlar mövcud deyildir. Nəqliyyat-logistika sisteminin səmərəliliyinin kəmiyyət qiymətini verən vahid inteqral göstərici də yoxdur. Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyini xarakterizə etmək üçün istifadə olunan göstəricilər çoxşaxəlidir [5, s.87]. Növbəti şərtlər yerinə yetirildikdə nəqliyyat-logistika sistemlərinin səmərəliliyi artacaq: çatdırılmanın etibarlılığının artırılması; mal partiyasının çatdırılması üçün sifarişin alınmasında ümumi vaxtın azaldılması; təchizat çevikliyinin artırılması; təchizatçının anbarında ehtiyatın olması: ehtiyatlar davamlı istehsal və ya satış prosesi məqsədilə kifayət etməlidir, malların sifarişi, göndərilməsi və saxlanması xərcləri azalmalıdır; malların sifarişi üçün kredit sxeminin mövcud olması.

Nəqliyyat-logistika fəaliyyəti ilə bağlı səmərəliliyinin artırılması məqsədi üçün təklif olunan mexanizmin fərqli xüsusiyyəti nəzarət prosesinin mövcudluğu və mexanizmin proseslə ayrılmaz əlaqəsi və tabeliyində olmasıdır. Mexanizm nəqliyyat-logistika fəaliyyətlə bağlı səmərəliliyin artırılması prosesi üçün idarə olunan bir mənbədir, yəni:

1) nəqliyyat-logistika fəaliyyəti ilə əlaqəli səmərəliliyin artırılması mexanizmi proses əsasında reallaşdırılır, mövcud reallığın bəzi gözlənilən formalara və ya parametrlərə çevrilməsi vardır;

2) bu mexanizmin öz nəzarəti yoxdur, o, müəssisələrdə müxtəlif idarəetmə subyektləri tərəfindən prosesə nəzarəti gözləmə vəziyyətindədir;

3) təqdim olunan mexanizm effektiv idarəetmə ilə inteqrasiya edildikdə, gözlənilən effektin əldə edilməsi prosesi daxildə həyata keçiriləcək.

Təklif olunan mexanizmin reallaşdırılmasının xüsusiyyətlərini nəzərdən keçirək. Resurslar və məhsullar müəssisənin alt sistemlərindən - istehsal, nəqliyyat, marketinq, informasiya, anbar və təchizat altsistemlərindən ibarət logistika sisteminə daxil olur. Təklif olunan mexanizm logistika sahəsində bir sıra qarşılıqlı əlaqəli idarəetmə qərarlarının davamlı axını əsasında işləyir. Qərarların bu axını təmin etmək üçün nəqliyyat-logistika fəaliyyəti sahəsində səmərəliliyi təmin edəcək bir məlumat sistemi lazımdır. Hazırlanmış model həm nəqliyyat-logistika alt sistemləri arasında, həm də yekun idarəetmə qərarlarının qəbulu mexanizmi çərçivəsində informasiya axınları üzrə hərəkəti təmin edir.

Beləliklə, işdə təklif olunan nəqliyyat-logistika fəaliyyətində əsas olan səmərəliliyin artırılması mexanizmindən istifadə istehsal, məlumat, marketinq, satınalma, anbar və nəqliyyat fəaliyyətini xarakterizə edən göstəricilərin faktiki və standart qiymətlərini müqayisə etməklə nəqliyyat logistikasının hər bir alt sistemini idarə etməyə imkan verəcəkdir. Nəqliyyat-logistika altsisteminə nəzarətin nəticələrinə əsasən bu fəaliyyətin səmərəliliyi üçün mövcud ehtiyatlar müəyyənləşdiriləcək və onlardan istifadə üçün konkret istiqamətlər formalaşdırılacaq ki, onların reallaşdırılması bütövlükdə müəssisənin iqtisadi səmərəliliyini təmin edəcək.

Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması üçün bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və effektivlisinin tətbiqi zəruridir. Nəqliyyat-logistika sisteminin inkişafı sahəsində qabaqcıl təcrübənin dərindən öyrənilməsi və buna əsaslanmaqla yeni əlaqəli layihələrin hazırlanması və reallaşdırılması iri nəqliyyat-logistika şirkətləri ilə əlaqələrin getdikcə intensivləşdirilməsini tələb edir [6, s.131]. Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması innovasiyaların tətbiqi səviyyəsindən asılıdır. Nəqliyyat-logistika sahəsində innovasiyaların praktiki tətbiqi müəssisə və təşkilatların rəqabətqabiliyyətliliyinin artırılması, eləcə də istehsal etdikləri məhsulların və göstərdikləri xidmətlərin rəqabət qabiliyyətinin yüksəldilməsi üçün güclü alətə çevrilir. Nəqliyyat-logistika fəaliyyətində innovasiyaların tətbiqi anbar və nəqliyyat təsərrüfatlarının işini asanlaşdırmağa və onların mənfəətini artırmağa kömək edən texniki inkişafları nəzərdə tutur. Nəqliyyat-logistika fəaliyyətində innovativ texnologiyalardan istifadə bir sıra üstünlüklər yaradır: əsas nəqliyyat xidmətlərinin keyfiyyətinin artması; logistika infrastrukturunun inkişafına investisiya qoyuluşunun artması; aktiv innovasiya siyasətinin reallaşdırılması; innovativ layihələrin dəstəklənməsində dövlətin marağının artması; özəl biznesin innovativ aktivliyinin artması; nəqliyyat-logistika şirkətlərinin fəaliyyətinin effektivliyinin artması və s. [7, s.108].

Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması üçün kommersiya bankları, bank olmayan kredit təşkilatlarının və s. daxil olmaqla

özəl investorlardan maliyyə cəlb etməklə logistika infrastrukturunun inkişafının stimullaşdırılması zəruridir. Nəqliyyat-logistika sisteminin yaradılması proseslərini sürətləndirmək və onların fəaliyyətinin səmərəliliyini artırmaq bütün maraqlı tərəflərin iştirakı ilə korporativ əsasda birliklərin yaradılması zəruridir. Nəqliyyat-logistika sistemlərinin səmərəli fəaliyyəti və onların inkişafı üçün müxtəlif səviyyəli logistik proqram və sistemləri ilə qarşılıqlı əlaqənin təşkili də zəruridir. Nəqliyyat-logistika sistemlərinin səmərəli fəaliyyəti üçün müvafiq strategiyanın hazırlanması da zərui şərtdir ki, malların həcminin və çeşidinin daim artırılması ilə yanaşı, qabaqcıl logistika texnologiyalarından və bazar üçün xarakterik olan digər xidmətlərdən istifadə etməklə bu sistemlərin funksional imkanlarının genişləndirilməsindən ibarət olmalıdır [8, s.68].

Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması onun rəqəmsallaşması səviyyəsindən asılıdır. Sürətlə inkişaf edən informasiya texnologiyaları nəqliyyat-logistika sisteminin bütün elementlərinin rəqəmsallaşmasına kömək edir. Rəqəmsal texnologiyalardan istifadə maddi, informasiya, maliyyə və nəqliyyat əməliyyatları daxil olmaqla, bütün daşıma proseslərini optimallaşdırmaq üçün geniş imkanlar yaradır. Texnoloji innovasiyaların tətbiqi nəqliyyat-logistika sistemlərinin rəqabət qabiliyyətini artırır, onların xərclərini azaldır, iqtisadi göstəriciləri yaxşılaşdırır. Bu gün nəqliyyat-logistika proseslərinin genişmiqyaslı rəqəmsal transformasiyası ölkənin nəqliyyat sənayesinin strateji vəzifəsidir. Nəqliyyat-logistika infrastrukturunun rəqəmsallaşdırılması mexanizmində əsas elementlərə daxildir: texnoloji innovasiyalar əsasında nəqliyyat-logistika proseslərinin əvvəllər mövcud olan avtomatlaşdırılmasının modernləşdirilməsi; normativ hüquqi bazaya yenidən baxılması və yenilənməsi, vahid standartların işlənib hazırlanması və yaradılması; texnoloji innovasiyaların tətbiqi ilə nəqliyyat-logistika infrastrukturunun inkişafı; nəqliyyat-logistika sənayesinin rəqəmsallaşdırılması.

**Müasir dövrdə nəqliyyat-logistika sisteminin inkişaf etdirilməsi yolları**

Nəqliyyat-logistika fəaliyyətinin idarə edilməsi sistemində informasiya texnologiyalarının istifadəsinə əsaslanan rəqəmsal logistika daşıyıcıların vəzifələrinin avtomatlaşdırılmasına töhfə verən bütün logistika prinsiplərinə riayət etməklə bütün yükdaşıma marşrutunun modernləşdirilməsinin əsas istiqamətinə çevrilir. Nəqliyyat-logistika şirkətləri müştərilərə xidmət səviyyəsini yüksəltməklə, marketinq və analitik fəaliyyət imkanlarını genişləndirməklə, marşrutların texnoloji qurulmasını, əmək məhsuldarlığını yüksəltməklə iqtisadi səmərəliliyi artırmaq imkanı əldə edirlər. Nəqliyyat-logistika fəaliyyətində informasiya texnologiyalarının tətbiqi və istifadəsi bunlara qadirdir: 1. Rəqəmsal informasiya sistemlərinin inkişafının stimullaşdırılması. 2. Yüklərin hərəkətinin qlobal monitorinqini təmin edən internet əsasında nəqliyyatda informasiya inteqrasiyasının saxlanılması və inkişaf etdirilməsi. 3. Nəqliyyat-logistika şirkətlərində daxili və xarici sənəd dövriyyəsinin təkmilləşdirilməsi. 4. Müştərilər və nəqliyyat xidməti təminatçıları arasında maksimum koordinasiyanın təmin edilməsi.

Bütövlükdə informasiya sistemi sahibkarlıq subyektləri arasında rəqabəti gücləndirməklə nəqliyyat-logistika xidmətlərinin əhatə dairəsinin genişləndirilməsinə və keyfiyyətinin yüksəldilməsinə şərait yaratmağa qadirdir. Rəqəmsal informasiya texnologiyalarının tətbiqi nəqliyyat-logistika şəbəkələrinin şəffaflığının formalaşmasına və onların hərtərəfli monitorinqinin mövcudluğuna kömək edir. Nəqliyyat-logistika sahələrinin rəqəmsallaşdırılmasına misal olaraq: yüklərin və nəqliyyat vasitələrinin GPS sistemindən, bütün marşrut boyu təhlükəsiz şəraiti təmin etmək üçün yük sensorlarından istifadə etməklə, daşınan malların faktiki yeri, vəziyyəti, ətraf mühitin mikroiqlim məlumatları haqqında məlumatların monitorinqi; avtonəqliyyat vasitələri parkının işini təşkil etmək, nəqliyyat aqreqatlarının vəziyyətinə nəzarət etmək, şəxsi heyətlə əlaqə saxlamaq və onlara nəzarət etmək və s. üçün kompüter texnologiyalarından və rabitə şəbəkələrindən istifadə edilməsi; marşrutların qurulması və idarə edilməsi, yanacaq sərfiyyatının monitorinqi, zərərli tullantıların azaldılması, texniki xidmət və təmirin planlaşdırılması zamanı məlumatlardan istifadə etmək üçün bütün avtomobil komponentlərinin işinə nəzarət, yol təhlükəsizliyinin artırılması, qanuni qaydalara və tələblərə riayət edilməsi.

İstehsal ehtiyacları üçün xərcləri optimallaşdırmaq, nəqliyyat şirkətlərinin iqtisadi səmərəliliyini artırmaq və rəqabət qabiliyyətini artırmaq üçün informasiya texnologiyalarından istifadənin geniş

perspektivləri hazırda müəssisələrin texnoloji innovasiyalara marağının davamlı artmasına kömək edir. Beynəlxalq bazarda daha rəqabətqabiliyyətli olmağa çalışan ölkələr malların gömrük rəsmiləşdirilməsi xərclərini minimuma endirməyə, əksinə, daşınma və gömrük rəsmiləşdirilməsi prosesini sürətləndirməyə çalışmalıdırlar. Nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyini artırmaq üçün müxtəlif qaydalara və rüsumlara uyğunluğu təmin etmək üçün gömrük rəsmiləşdirilməsi prosedurları da sadələşdirilməlidir. Rəqəmsal texnologiyaların tətbiqi ilə buna nail olmaq mümkündür. Odur ki, dünya miqyasında nəqliyyat-logistika xidmətlərinin rəqabətqabiliyyətlilik səviyyəsinin artırılmasında maraqlı olan ölkələr rəqəmsal infrastrukturun inkişafına, o cümlədən informasiya kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirməlidirlər.

İnformasiya texnologiyalarının istifadəsi təkcə malların çatdırılmasını dəqiq izləməyə deyil, həm də anbardan malların alıcısına qədər nəqliyyat-logistik xidmətlərin bütün spektrini dəyişdirməyə imkan verir. Onlar təhlükəsiz yükü mümkün qədər qısa müddətdə və optimal xərclərlə çatdırmağa imkan verir. Bütün nəqliyyat-logistika sistemlərinin idarə edilməsi üçün rəqəmsal informasiya bazasının yaradılmasının, ən uyğun nəqliyyat vasitələrindən, logistik vasitəçilərdən və yük terminallarından istifadə edərək optimal çatdırılma marşrutunun seçilməsi probleminin həlli də vacibdir.

Multimodal nəqliyyat-logistika mərkəzlərinin yaradılması nəqliyyat-logistika infrastrukturunun inkişafında mühüm amilə çevrilə bilər ki, bu da müvəqqəti saxlama, daşınma, çeşidləmə sistemini optimallaşdırmağa, əmtəə axınlarına informasiya-hüquqi dəstək verməyə imkan verir. Belə mərkəzlər böyük həcmdə mallarla işləyə bilər ki, bu da nəqliyyat-logistika fəaliyyətində informasiya texnologiyalarının tətbiqini stimullaşdırır. Nəqliyyat-logistika fəaliyyətinin təhlili nəticəsində onun rəqəmsal məkanını formalaşdıran perspektivli istiqamətləri müəyyənləşdirmək mümkündür: multimodal yük daşımaları; birbaşa qarışıq sərnişin daşımaları; vahid normativ baza əsasında logistika sistemlərinin idarə edilməsi; nəqliyyatın istismarının təhlükəsizliyinin artırılması. Nəqliyyat-logistika sistemlərinin fəaliyyəti üçün vahid rəqəmsal platformanın yaradılması ölkənin nəqliyyat-logistika xidmətlərinin keyfiyyətini yüksəltməyə, logistik əməliyyatlar həyata keçirərkən elektron sənəd dövriyyəsinə keçməyə, beynəlxalq nəqliyyat-logistika sisteminə qoşulmağa imkan verəcəkdir. İstənilən nəqliyyat-logistika xidməti dünya ölkələri arasında sosial-iqtisadi əlaqələrin səmərəliliyinin artırılmasında, yük axınlarının tənzimlənməsinin hazırlanmasında və reallaşdırılmasında önəmli rol oynayır və buna görə nəqliyyat-logistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi də vacib şərtlərdəndir [9, s.68].

Qlobal çağırışlar kontekstində Azərbaycanın nəqliyyat sferasında strateji vəzifələri diqqət çəkir. Bunlardan biri qlobal Zəngəzur Nəqliyyat Dəhlizi ilə bağlıdır [10]. Bu dəhlizin Türk dövlətləri üçün də böyük əhəmiyyəti vardır. Dəhliz Avropa ilə Asiya arasında yüklərin daşınması baxımından kifayət qədər əlverişlidir [11, s. 13]. Hazırda bu dəhlizin reallaşdırılması istiqamətində iki variant mövcuddur. Bunlardan biri Azərbaycan xalqının və dövlətinin haqqı olan – Naxçıvanı birləşdirən quru yoldur, digəri isə İran ərazisindən icrasına start verilən alternativ nəqliyyat-logistika dəhlizidir.

**Nəticə**

Beləliklə, nəticə olaraq qlobal çağırışlar nəzərə alınmaqla, Azərbaycanda nəqliyyat-logistika fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- nəqliyyat-logistika sistemlərinin optimallaşdırılması üçün qəbul edilən qərarların keyfiyyət və effektivlik səviyyəsini və bunun üçün meyarların müəyyənləşdirilməsi;
- nəqliyyat-logistika fəaliyyətinin səmərəlilik göstəricilərinin qiymətləndirilməsi;
- nəqliyyat-logistika sisteminin sistemin missiyasını və uzunmüddətli strategiyasını ümumi məqsədə çevirən balanslaşdırılmış göstəricilər kartının istifadəsi;
- nəqliyyat-logistika fəaliyyətinin rəqəmsallaşdırılmasının gücləndirilməsi və daim təkmilləşdirilməsi. Bu, nəqliyyat-logistika xidmətlərinin keyfiyyətini yüksəltməyə, logistik əməliyyatları reallaşdırarkən elektron sənəd dövriyyəsinin sürətləndirilməsinə imkan verəcəkdir və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Əliyev, Ş.T. Azərbaycanda nəqliyyat sektorunun müasir vəziyyəti və inkişaf potensialı // Elmi əsərlər jurnalı, AMEA İqtisadiyyat İnstitutu, 2018, №2. – S.5-11. http://economics.com.az/images/fotos/elmi_eserler_pdf/2018_2/1%20Aliyev%20Sh.pdf
2. Федотенков, Д.Г. Развитие транспортно-логистических систем в условиях глобализации мировой экономики / Д.Г. Федотенков. — Текст: непосредственный // Инновационная экономика: материалы I Междунар. науч. конф. (г. Казань, октябрь 2014 г.). — Казань: Бук, 2014. – С. 222-226.
3. Əliyev, Ş.T. Müasir dövrdə Azərbaycanın nəqliyyat sektorunun inkişafının strateji aspektləri / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı il dönümünə həsr olunmuş Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri Respublika Elmi Konfransının materialları. SDU, 25-26 aprel 2019. – S. 105-111.https://sdu.edu.az/userfiles/file/conferences/II%20q%20konfrans%202019.pdf.
4. Экономический механизм развития транспортно-логистической деятельности на предприятиях / Р.Б. Ивуть [и др.]. – Минск: БНТУ, 2022. – 240 с.
5. Карпенко, Е.М., Карпенко, В.М. Критерии оценки эффективности функционирования региональной транспортно-логистической системы. Труды БГТУ, 2020, серия 5, № 2, с.84–90.
6. Hüseynova, M.S. Azərbaycanda iqtisadi islahatlar şəraitində nəqliyyat-logistika sisteminin səmərəlilik məsələləri. Geostrategiya jurnalı, yanvar - fevral 2020, № 01 (55), s.128-132.
7. Зарипова, Р.С., Рочева, О.А., Хамидуллина, Ф.Р., Арбузова, М.В. Внедрение цифровых технологий как фактор повышения эффективности работы транспортно-логистических систем. International Journal of Advanced Studies: Transport and Information Technologies, Vol. 11, No 2, 2021, c.100-110.
8. Hüseynova, M.S. Regional nəqliyyat-logistika sistemləri və onların yaradılmasının səmərəliliyi. SDU-nun Elmi xəbərləri. Sosial və humanitar elmlər bölməsi, Cild 17 № 3, 2021, s.66-69.
9. Rəcəbli, İ.R. Azərbaycan Respublikasında nəqliyyat və logistik xidmətlərdə rəqəmsal biznes modellərinin inkişaf istiqamətləri. Audit, 2022, 3 (37), s.66-74.
10. Əliyev, Ş.T. Zəngəzur qlobal nəqliyyat dəhlizinin Türk dövlətlərinin iqtisadi inteqrasiyasında strateji funksiyaları / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş “Heydər Əliyev və müasir türk dünyası” beynəlxalq elmi-praktik konfransın. AKU, Bakı. 2 may 2023. Google Scholar. https://scholar.google.com/citations?user=iLFtk9wAAAAJ&hl=ru.
11. Əliyev, Ş.T. Yaxın və uzaq perspektivdə Zəngəzur Qlobal Nəqliyyat Dəhlizinin strateji aspektləri // “Qərbi Kaspi Universitetinin Elmi Xəbərləri”, Bakı, 2023, №03. - S.9-16. https://journal.wcu.edu.az/uploads/files/2023-3-ictimai-2%20Aliyev%20Shafa.pdf .



**ГУЛИЕВА Джамиля Эльчин кызы**

*Диссертант Азербайджанского Университета Кооперации,*
*AZ1124, Азербайджанская Республика,*
*г.Баку, улица Н.Нариманова 93*
*E-mail:* calalzadecamila@gmail.com


## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ТРАНСПОРТНО-ЛОГИСТИЧЕСКОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА


**Резюме**

**Цель исследования** – является определение направлений развития транспортно-логистической системы Азербайджана. Изложены и систематизированы проблемы развития транспортно-логистической системы. Проанализировано стратегическое значение транспортной инфраструктуры в современную эпоху и обоснована важность ее расширения. Были даны рекомендации и подготовлены предложения по направлениям развития транспортно-

логистической системы в контексте глобальных вызовов и формирования транспортной инфраструктуры на постконфликтных территориях Азербайджана.

***Методологии исследования*** –в основном использовался методов — научная абстракция, анализ, синтез, сравнение и обобщение. Наряду с этим, имелись ссылки на научные труды различных исследователей по проблемам развития транспортно-логистической системы.

***Результаты исследования*** - в условиях глобальных вызовов научно-практические результаты, отраженные в статье, объясняются тем, что они могут быть эффективны при подготовке мер и механизмов развития транспортно-логистической системы.

**Ключевые слова:** Азербайджан, транспортная система, логистическая система, транспортно-логистическая система, транспортно-логистические проблемы, проблемы эффективности транспортно-логистической системы, направления развития транспортно-логистической системы

**Guliyeva Jamila Elchin**
*Dissertantt of Azerbaijan Cooperation University,*

## DİRECTİONS FOR DEVELOPİNG THE TRANSPORT AND LOGİSTİCS SYSTEM İN AZERBAİJAN

### Summary

***The purpose of the study** is* to identify the directions of development of the transport-logistics system in Azerbaijan. The problems of development of the transport-logistics system are explained and systematized. The strategic importance of transport infrastructure in the modern era is analyzed and the importance of its expansion is justified. Recommendations are given and proposals are prepared on the directions of development of the transport-logistics system in the context of global challenges and the formation of transport infrastructure in post-conflict areas in Azerbaijan.

In terms of the ***research method***, a number of methods were used - scientific abstraction, analysis, synthesis, comparison and generalization. Along with these, there were references to scientific works of various researchers on the problems of developing the transport-logistics system.

***The results of the study*** - in the context of global challenges, the scientific and practical results reflected in the article are explained by the fact that they can be effective in preparing measures and mechanisms for the development of the transport and logistics system.

***Key words:*** Azerbaijan, transport system, logistics system, transport-logistics system, transport-logistics problems, transport-logistics efficiency problems, development directions of the transport-logistics system.